**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XÜRRƏMİLƏR HƏRƏKATININ TARİXŞÜNASLIĞI

İxtisas: 5503.02 – Vətən tarixi
Elm sahəsi: Tarix

İddiaçı: **Ceyhun Məhəmməd oğlu Bayramlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı–2024**

Dissertasiya işi Azərbaycan Universitetinin ictimai elmlər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**Anar Camal oğlu İsgəndərov**

Rəsmi opponentlər: Tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevda Bəhmən qızı Hüseynova**

Tarix elmləri doktoru, professor
**Adil Baxşəli oğlu Baxşəliyev**

Tarix elmləri doktoru, professor
**Vəkil Səfiyar oğlu Həsənov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri:
tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya Şurasının elmi katibi:
tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri:
tarix üzrə elmlər doktoru, dosent
**Fazil Eynulla oğlu Baxşəliyev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
Ministry of Science and Education of the Republic of Azerbaijan
BDU
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
(S.A.A.)
"23" 05 2024

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan müstəqilliyini elan etdikdən sonra Azərbaycan tarixinin natamam tədqiq olunmuş müxtəlif dövlərinin tədqiqində yeni bir dövr başlamış, bir sıra tarixi dövr və hadisələrlə bağlı yeni məzmunlu elmi-tədqiqat işləri aparılmışdır. Azərbaycan tarix elmində həll olunmamış problemlərdən biri də Xürrəmilər hərəkatının tarixşünaslığıdır. XX əsrdə Azərbaycan tarixinin VIII-IX əsrlər dövrü ilə bağlı aparılan elmi-tədqiqat işlərinin miqyası əsasən mövcud ictimai-siyasi quruluşun qoyduğu ideoloji tələblərə görə məhdud çərçivəli olmuş və Xürrəmilər hərəkatı problemi istər tarixi mənbələrdəki məlumatların tam şəkildə elmi dövriyyəyə buraxılması baxımından, istərsə də müasir dövr tədqiqatçılarının mövqe və mülahizələrinin geniş və əhatəli təhlili baxımından natamam tədqiq olunmuşdur. Mövzu ilə bağlı bu günədək müxtəlif səpkili araşdırma işləri işıq üzü görsə də, Xürrəmilər hərəkatı və xüsusən də bu hərəkatın Babək Xürrəminin rəhbərliyi altında geniş vüsət almış IX əsr mərhələsi sistemli və obyektiv formada tədqiq olunmamışdır.

Problemin geniş miqyasda tədqiq olunmasına başlıca əngəllərdən biri də qərb tarixçi və tədqiqatçılarının mülahizələrinin əks olunduğu elmi ədəbiyyatın əsaslı şəkildə tədqiqata cəlb olunmamasıdır. Hakim sovet ideologiyasının davamlı təsiri ilə Xürrəmilər hərəkatının məqsədləri, ideoloji prinsipləri, xürrəmilərin dini-məzhəbi dünyagörüşləri, sosial tələbləri, zümrəvi tərkibi və digər məsələlər təhrifə uğradığına, hərəkatın Babək dövrü ilə əvvəlki mərhələlərin əlaqəsi köklü şəkildə qurulmadığına və Babək hərəkatı ayrıca bir üsyan kimi təqdim olunduğuna görə[1], bu gün sovet dövrünün ideoloji buxovlarından azad olan müstəqil Azərbaycanın tarix elmində Xürrəmilər hərəkatı və onun Babək dövrünün tarixini fundamental şəkildə yenidən tədqiq etməyə ehtiyac yaranmışdır.

---

[1] История Азербайджана. В трех томах / под ред. И.А.Гусейнова, А.С.Сумбатзаде, А.Н.Гулиева, Е.А.Токаржевского. АН Азерб. ССР, Ин-т Истории. Т.1. С древнейших времен до соединения Азербайджана к России. Баку: Академия Наук Азерб. ССР, 1958, 422 с.

Digər tərəfdən, Xürrəmilər hərəkatının məzmunu və mahiyyəti barədə bu dövrü araşdırmış tədqiqatçıların fikirləri bir çox hallarda ziddiyyətli və səthi olmuşdur, çünki hərəkatın mahiyyəti və hədəfləri barədə tarix elminə məlum olan mənbə məlumatları bir qayda olaraq həqiqətəuyğunluq dərəcəsi müəyyənləşdirilmədən, xürrəmilərə düşmən mövqedə durmuş tərəfin diktəsi ilə yazılması faktı bir çox hallarda nəzərə alınmadan, müqayisəli təhlil edilmədən, mənbələrdə qeyd olunduğu formada elmi dövriyyəyə buraxılmış, nəticədə bir hərəkat barədə bir-biri ilə ziddiyyət təşkil edən çoxlu sayda müxtəlif fikirlər formalaşmışdır. Akad. Z.Bünyadovun hərəkatın əsas şüarları, məqsədləri, xürrəmilərin sosial siyasəti, hərəkata qoşulan xalq kütlələrinə rəhbərlik və digər məsələlərin hələ də ətraflı tədqiq edilməli olan məsələlər olduğu fikrindən çıxış etməsi[2] Xürrəmilər hərəkatı mövzusunun Azərbaycan tarix elmində bu gün də öz aktuallığını qoruyub saxladığını düşünməyə əsas verir.

Mövzunun aktuallığını səciyyələndirən daha bir xüsusiyyət bu günədək Xürrəmilər hərəkatı barədə yazılmış elmi-tədqiqat işlərində Avropa, Amerika, Türkiyə və İran tarixçilərinin mövqeyinin əks olunduğu çoxsaylı ədəbiyyatların demək olar ki, nəzərə alınmamasından ibarətdir. Hərəkatın mərhələləri, üsyan rəhbərləri və bu kontekstdə baş vermiş hadisələrlə bağlı məlumat bazası tam olaraq və xronoloji ardıcıllıqla sistemləşdirilməmiş, eləcə də, Avropa, Amerika, Türkiyə, İran və Rusiya tarixçilərinin bu problemlə əlaqədar mövqeləri dağınıq və natamam halda tədqiq edilmişdir. Bu haqda çoxsaylı məlumatların yer aldığı tarixi məxəzlərin böyük bir hissəsinin bu günədək aparılmış tədqiqat işlərində nəzərə alınmaması Azərbaycan tarixinin bu dövründə baş vermiş hadisələr barədə vətən tarixşünaslığında dolğun və hərtərəfli mövqe bildirməyə mane olur. Xürrəmilər hərəkatının tədqiq olunmasının Azərbaycan tarix elmi üçün əhəmiyyəti hərəkatın ən geniş yayılma dövrü olan Babək dövrünün (816-838-ci illər) şimallı-cənublu Azərbaycan tarixi-coğrafi arealını əhatə etməsi, Azərbaycan xalqının IX əsrdə yadelli işğalçılara qarşı azadlıq mübarizəsi və Azərbaycanın tarixi dövlətçilik ənənələri ilə əlaqədardır. Müstəqil

---

[2] Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 424 s., s.40

Azərbaycanın tarix elmində bu hərəkatla bağlı yeni, sistemli, maraqlardan çıxış etməyən, obyektiv, rasional, çoxşaxəli və konseptual elmi yanaşmaya ehtiyac vardır.

Xürrəmilər hərəkatı probleminin araşdırılması prosesində müxtəlif ölkələrdən olan tədqiqatçı-alimlərin Xürrəmilər hərəkatı mövzusuna toxunduqları nəzərə alınmış, onların yazdıqları əsərlərdə əks olunmuş fikir və müddəalar aşağıdakı kimi qruplaşdırılmışdır.

Dissertasiya işinin xronoloji çərçivəsi VIII-IX əsrləri əhatə edir. Bu dövr Yaxın Şərq, Ön Asiya, Qafqaz, İran və Xorasan bölgələrinin tarixində və geosiyasi xəritələrində mühüm dəyişikliklərin baş verdiyi dövr kimi xarakterizə olunmalıdır. Əməvilərin hakimiyyətdən devrilməsi və Abbasilərin iqtidara gəlişi, ərəb-bizans və ərəb-xəzər müharibələrinin yeni fazaya qədəm qoyması, dini-siyasi yönümlü mötəziliyyə cərəyanının xilafət sarayının rəsmi məzhəbinə çevrilməsi, fərqli fikir təmsilçiləri olan təriqət və cərəyanları amansızcasına təqib etməsi xilafətin mərkəzi, şimal və şərq bölgələrində mövcud iqtidara qarşı çoxsaylı silahlı üsyan və qiyamların baş qaldırması ilə müşayiət olunmuşdur. Sırf sosial və zümrəvi xarakter daşıyan etiraz və üsyanlar istisna olmaqla, bu dövrdə baş verən üsyan və qiyamların böyük əksəriyyəti Xürrəmilər hərəkatının mərhələlərini əks etdirir. Bir əsrdən artıq mövcud olmuş Xürrəmilər hərəkatı VIII əsrin ortalarında Əbu Müslüm Xorasaninin başçılığı altında özünün mütəşəkkilliyi, ideya məzmunu və geniş əhatə dairəsi ilə seçilirsə, IX əsrdə Xürrəmilər hərəkatının yüksəlişi və xilafətin bütün şimal, mərkəzi və şərq bölgələrini əhatə etməsi Babək Xürrəminin öndərliyi dövrünə təsadüf edir. Bu baxımdan Xürrəmilər hərəkatının tarixşünaslığı özündə iki əsas tarixi dövrü əks etdirməlidir:

- hərəkatın VIII əsr mərhələləri;
- hərəkatın IX əsr mərhələləri.

Xürrəmilər hərəkatının baş qaldırdığı VIII əsr ərzində baş vermiş hadisələr, Əbu Müslüm Xorasaninin xilafətin bütün şərq və mərkəzi torpaqlarını əhatə edən üsyanı istisna olmaqla, İraqın, Azərbaycanın, İranın və orta Asiyanın ayrı-ayrı coğrafi bölgələrini əhatə etmiş, bəzənsə lokal xarakterli olmuşdur. Bu dövrdə xürrəmi xarakterli etiraz və üsyanlar Abbasilər xilafətinin siyasi təzyiq və

basqıları altında bir-birinin ardınca yatırdılmış, lakin xürrəmiliyin ideyaları və xilafətə qarşı etirazlar yayılmaqda davam etmişdir. Bu etirazların davam etməsinin ən mühüm səbəbləri kimi əsasən Abbasilərin yürütdüyü daxili siyasət, işğal olunmuş bölgələrə münasibətdə tətbiq olunan köçürmə siyasəti, ağır vergi və torpaq siyasəti, milli-dini ayrıseçkilik təzahürlərinə meydan verilməsi, bölgə xalqlarının milli adət-ənənələrinin aradan qaldırılmasına edilən cəhdlər, Abbasi sarayının İslami təriqət və cərəyanlara qarşı amansız təqibləri və digər amillər qeyd oluna bilər.

Xürrəmilər hərəkatının IX əsr dövrü özünün mütəşəkkilliyi, xilafətin bütün şərq və mərkəzi əyalətlərini bürüməsi, geniş xalq kütlələrini əhatə etməsi baxımından səciyyələnir. Xürrəmiyyə lideri Şəhrək oğlu Cavidanın 816-cı ildə ölümündən sonra xürrəmilərin öndəri olmuş Babəkin fəaliyyəti Xürrəmilər hərəkatının yenidən geniş vüsət almasına, Abbasilər xilafətinin bir neçə əsrlik mövcudiyyəti boyunca ona ən böyük təhlükə olaraq görülməsinə gətirib çıxarmışdır. Dissertasiya işində Babək Xürrəminin 838-ci ildə edam olunmasından sonra Xürrəmilərin fəaliyyəti barədə elmi dövriyyədə olan və diqqətdən kənarda qalmış faktoloji materiallar da nəzərdən keçirilir və sistemli şəkildə təhlil edilir.

Dissertasiya işinin mövzusunun hər şeydən öncə Azərbaycan tarix elmi üçün mühüm əhəmiyyətini, vətən tarixinin Xürrəmilər hərəkatı dövrü ilə bağlı yeni yanaşmaları ehtiva edən elmi-tədqiqat işlərinin aparılması ehtiyacını, həmçinin, bu hərəkatın ən böyük dalğasına öndərlik etmiş Babək Xürrəmi şəxsiyyətinin Azərbaycana məxsus olduğunu nəzərə alaraq, dissertasiya işində ilk qrupa Xürrəmilər hərəkatının Vətən tarixşünaslığı çərçivəsində Azərbaycan tarixçi-alimlərinin əsərlərinin, fikir, fərziyyə və mülahizələrinin təhlili daxil edilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan tarix elmində Xürrəmi üsyanları və Babək Xürrəminin rəhbərlik etdiyi xalq-azadlıq hərəkatı haqda ilk məlumatlara Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" adlı əsərində rast gəlinir. Daha sonra bu mövzuda tezislərlə çıxış etmiş Panteleymon Juze (Bəndəli Cövzi)[3] və Cahangir Zeynaloğlunun[4]

[3] Жузе П.К. Папак и папакизм. // Известия Бакинского Государственного Университета. Вып.2. Баку: 1921, второй полутом, s. 204-216

Xürrəmilər hərəkatına olan yanaşma və mövqeləri təhlil süzgəcindən keçirilmiş, ziddiyyətli məqamlara aydınlıq gətirilmişdir. Sovet dövründə Xürrəmilər hərəkatı mövzusuna II Dünya Müharibəsi illərində daha müntəzəm müraciət edilmiş, Azərbaycan sovet tarixçiləri Z.İbrahimovun[5], Z.İ.Yampolskinin[6], Z.Lənkəranlının[7] tədqiqat işləri və əsərləri yadelli işğalçılara qarşı xalq-azadlıq hərəkatı mövzusunun elmi dövriyyədə özünə yer tutması baxımından elmi ictimaiyyətin böyük marağına səbəb olmuşdur. XX əsrin II yarısından etibarən Xürrəmilər hərəkatının tədqiqi üzrə iş daha da genişləndirilmiş, Ziya Bünyadovun çoxsaylı elmi əsərləri, M.İ.Azərlinin araşdırması, E.Z.Əzizovun dissertasiya işi və Nailə Vəlixanlının sanballı monoqrafiyası Xürrəmilər hərəkatı probleminə daha dərindən nüfuz etmək və daha obyektiv elmi nəticələr əldə etmək baxımından böyük rol oynamışdır. Dissertasiya işinin ilk fəslində xüsusilə Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" monoqrafiyası və Nailə Vəlixanlının "Ərəb xilafəti və Azərbaycan" əsəri[8] Xürrəmilər hərəkatının tədqiqi nöqteyi-nəzərindən diqqətlə analiz edilmiş, bu əsərlərin elmi məziyyətləri və yenilikləri qeyd edilməklə yanaşı, dövrün tələbindən irəli gələrək əks olunmuş bir sıra mühüm məsələlərə yeni baxış bucağı ilə yanaşma nümayiş etdirilmişdir, həmçinin, tanınmış tarixçi-alimlərin bu mövzuda digər elmi əsərləri və məqalələri müqayisəli şəkildə təhlil olunmuşdur. Bu qrupda həmçinin öz tədqiqat işlərində Xürrəmilər hərəkatı mövzusuna müəyyən səviyyədə toxunmuş M.Şərifli[9], A.S.Yunusov[10], H.Vəli,

---

[4] Zeynaloğlu, Cahangir. Müxtəsər Azərbaycan tarixi. Elmi-publisistik və tarixi kitab. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, 144 s.

[5] İbrahimov Z. Azərbaycan xalqının ərəb işğalçılarına qarşı mübarizəsi, namizədlik dissertasiyası. Bakı: 1941.

İbrahimov Z. Babək. Red. Ə.Dadaşlı. Bakı: Azərnəşr, 1944, 56 s.

Ибрагимов З. Тотржевский Е.О. О доблести и мужестве азербайджанцев. Баку: 1943.

[6] Ямпольский З.И. Восстание Бабека. Краткий очерк. Баку: Издательство Аз.ФАН, 1941, 51 s.

[7] Lənkəranlı Z. Babək. Bakı: EA AzF Nəşriyyatı, 1943, 24 s.

[8] Vəlixanlı. N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.

[9] Şərifli M.X. Azərbaycan feodal dövlətləri IX əsrin II yarısı – XI əsrlərdə. Bakı: Elm, 1978, 343 s.

[10] Юнусов А.С. Восстание Бабека. // Вопросы истории. 1989, №12, s. 134-144

N.Əliyeva[11], R.Əliyev[12], Ə.Ələkbərov[13], H.Şamıyeva[14], L.Qafarzadə[15] və digərlərinin ərsəyə gətirdikləri elmi araşdırmalarda diqqəti cəlb edən məqamlar bir araya gətirilərək nəzərdən keçirilmişdir.

Hərəkatın ilk mərhələlərinin əsasən indiki İran ərazilərini əhatə etdiyi nəzərə alınaraq, ikinci qrupda İran tarixçilərinin Xürrəmilər hərəkatı barədə öz əsərlərində yer verdikləri fikir və mülahizələr cəm edilmişdir. Tanınmış İran tarixçilərindən Səid Nəfisi[16], Əbdülhüseyn Zərrinkub[17], doktor Qulamhüseyn Sədiqi[18], Məhəmməd Cavad Məşkur, Nadəli Həmədani[19], M.Pərmun[20], Əbuzər Vərdəsbi[21], Nasir Nəcmi[22], Səməd Sərdariniya, Zəbiullah Səfa, Məhəmməd Mehrab[23], Murtəza Ravəndi, Behruz Xamaçi[24] və

---

[11] Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: Çaşıoğlu, 1999, 245 s.

[12] Əliyev R.Y. İslam. Bakı: İrşad, 2000, 380 s.

[13] Алекперов А. Тюрки Азербайджана. Древность и раннее средневековье. Баку: Шарг-Гарб, 2011, 560 s.

Алекперов А. Один из древнейших тюркских этносов передней Азии – Кадусии. // Tarix və gerçəklik. Azərbaycan Tarix Qurumu. I cild. Bakı: 2010, s.32

[14] Şamıyeva H. Xürrəmilərin dini inanc və ayinləri, qadına münasibət. // Tarix və onun problemləri, №4. Bakı: 2009, s.26-32

[15] Кафар-заде Л. Освещение народно-освободительной борьбы хуррамитов под предводительством Бабека в английской историографии. // Tarix və onun problemləri. Mənbəşünaslıq. Tarixşünaslıq. №3, 2013, s.326-333

[16] Səid Nəfisi. Babək Xürrəmdin delavəre Azərbaycan. 1-ci çapı. Tehran: Əsatir Nəşriyyatı, 1954, 273 s.

[17] Əbdülhüseyn Zərrinkub. Do qərne sükuut. (İki əsrlik sükut). Tehran: Əmirkəbir nəşriyyatı, 1957, 2-ci nəşər, 213 s.

[18] Qulamhüseyn Sədiqi. İranda dini hərəkat hicri II və III əsrlərdə. 1-ci nəşr. Tehran: Bəhmən nəşriyyatı, 1993, 404 s.

[19] Nadəli Həmədani. Həmaseye Babək Xürrəmidin. III nəşr. Tehran: Bamdad nəşriyyatı, h.ş. 1353, 309 s.

[20] Pərmun M. Əbər mərd, əbər həmasə. Babək Xürrəmdin. Tehran: Cəhan kitab nəşriyyatı, 1975, 66 s.

[21] Əbuzər Vərdəsbi. Sorx cameqan və nəmid puşan. Tehran: Peyvənd nəşriyyatı, 1979, 110 s.

[22] Nasir Nəcmi. Qiyame Məziyar və Babəke Xürrəmidin və sorx-ələmhaye Mazandaran. I nəşr. Tehran: Ədib nəşriyyatı, 1989, 282 s.

[23] Məhəmməd Mehrab. Babək Xürrəmidin. III nəşr. Təbriz: Haşimi Sudmənd nəşriyyatı, 151 s.

digərlərinin əsərlərində Xürrəmilər hərəkatı mövzusu müxtəlif tərəflərdən tədqiq olunmuş, hərəkatın tarixi, mahiyyəti, məqsədləri və sosial bazası ilə bağlı qədim dövr ərəb, fars və erməni dilli mənbələrin məlumatlarına geniş yer verilmişdir. İran tarixçilərinin əsərlərində bir qayda olaraq Xürrəmilər hərəkatını İran tarixinə məxsus bir hadisə kimi təqdim etmək meylləri özünü biruzə versə də, tədqiqata cəlb edilən mənbələrin çoxluğu və zəngin məlumat bazası Xürrəmilər hərəkatı ilə bağlı çoxşaxəli və sistemli mülahizələr yürütmək baxımından böyük maraq doğurur.

Bununla yanaşı, İran tarixşünaslığında Xürrəmilər hərəkatı və xüsusən də bu hərəkatın Babək dövrünün tədqiq edildiyi bir sıra əsərlərdə hərəkatın tarixşünaslığı üçün mühüm əhəmiyyət kəsb edən maraqlı məlumatlara yer verildiyini vurğulamaq lazımdır. Bu sırada Əli Mirfetrusun "Qırmızı paltarlılar hərəkatı" (Conbeşe Sorxcameqan), Əhməd Yəğmanın "Babək Xürrəmidin təfəkkür güzgüsündə", Seyid Vəhid Hüseyninin "Babək və xürrəmilər (qırmızı paltarlılar) hərəkatı", Əmir Hüseyn Xoncinin "Müsavat istəyən Xürrəmi Babək hərəkatı", Qulamhüseyn Yusofinin "Babək Xürrəmi" adlı əsərləri diqqəti cəlb edir.

Üçüncü qrupa Xürrəmilər hərəkatı barədə araşdırmalar aparmış qərb tarixçilərinin fikir və mülahizələri daxil edilmişdir. Qərb tarixşünaslığının bu haqda mövqeyi o cəhətdən böyük əhəmiyyət daşıyır ki, Xürrəmilər mövzusuna öz dövləti maraqlarının prizmasından yanaşma nümayiş etdirməyə çalışan İran tarixçilərindən, həmçinin, Xürrəmilər hərəkatının mahiyyətini və Babək şəxsiyyətini bir sıra aspektlərdə təhrif etməklə öz siyasi-ideoloji maraqları çərçivəsində tədqiq etmiş rus-sovet tarixşünaslığından fərqli olaraq, qərb tarixşünaslığı Xürrəmilər hərəkatı probleminə daha sərbəst və obyektiv baxış bucağı sərgiləməyə cəhd göstərmişdir. Xüsusən də Avropa və Amerika tarixçi-alimlərinin hərəkatla bağlı mənbə məlumatlarına sərbəst mövqe nümayiş etdirmə tendensiyası onların əsərlərində hiss olunur. Əlbəttə, Xürrəmilər mövzusunda Avropa tarixçilərinin bəziləri

---

[24] Behruz Xamaçi. Qəlehaye tarixiye Azərbaycan. II nəşr. Təbriz: Setare nəşriyyatı, 265 s.

ənənəvi tarixşünaslığın tezis və müddəalarını bu və ya digər məqamlarda təkrar etmiş, hərəkatın məzmun və mahiyyətini, mərhələləri arasında tarixi-ideoloji əlaqələri dərin analiz etmədən səthi mövqe bildirməklə hərəkatın məzmununda sosial tələblərin olması, yerli feodal və mülkədarların rolunun demək olar ki olmaması, xürrəmilərin utopik kommunizm ideyalarından çıxış etməsi, eləcə də, onların guya əxlaqi sapınmalara məruz qalması (qadın ortaqlığı), içki və eyş-işrət düşkünü olması kimi ciddi elmi əsası olmayan fikirlərə də yer vermişlər. Əsasən Xürrəmilərə düşmən mövqedə olan ərəb-fars tarix yazarlarının və XX əsr rus-sovet tarixşünaslığının təsirindən irəli gələrək təkrarlanmış bu mülahizələrə Bernard Luis[25], Yulius Velhauzen[26], David Samuel Marqoliut[27], Qustav fon Grunebaum[28], Edvin Rayt[29], U.Myuir[30] və Uilferd Madelunqun[31] əsərlərində rast gəlinir. Qərb tarixşünaslığının tərkib hissəsi olaraq, Türkiyə tarixşünaslığının bu məsələlərə dair mövqeyi də ciddi araşdırılmamış fərziyyələrlə müşayiət olunur. Xürrəmilərin dini dünyagörüşlərinin təhlilində də bəzi Avropa tarixçiləri səthi nəticələr hasil etmişlər. Bu sırada Xürrəmilərin guya atəşpərəst. zərdüştçü, İslamdan uzaq, hətta bütpərəst bir qüvvə olması barədə Y.Velhauzen və K.Bosvörsün[32] fikirlərini qeyd etmək olar. Bununla

[25] Lewis, Bernard. The Arabs in history. Oxford: Oxford University Press, 2002, 240 pp., s.109

[26] Wellhausen, Yulius. The Arab Kingdom and its fall. Trans. by Margaret Graham Weir. M.A., published by the University of Calcutta. Calcutta: 1927, 592 pp., s.516

[27] Margoliouth, David Samuel. Hürremiyye. / İslam Ansiklopedisi. İstanbul: V/I, 1979, s.596

[28] Von Grunebaum, Gustav Edmund. Classical Islam. A history 600 AD to 1258 AD. New edition. New Jersey: Adline Transaction Publishers, New Brunswick, 2005, 243 pp., s.205

[29] Wright, Edvin M. Babak of Badhdh and Afshin during the years 816-841 AD. I. // The Muslim World. Vol. XXXVIII. 1948, №1, s. 43-59

[30] Muir, W. The Caliphate: its rise, decline and fall from original sources. Edinburgh: John Grant, 1924, 604 pp., s.504

[31] Madelung, Wilferd Ferdinand. Khurramiyya. // Encyclopaedia of Islam. New edition. Vol. 5, second edition. Leiden: E.J.Brill, s.63

[32] Bosworth, C.E. Azerbaijan IV, Islamic history to 1941. / Encyclopaedia Iranica / ed. by Yartasher E. Vol.3, fasc. 2-3. London: New-York: Routledge & Kegan Paul, 1987, s.225

yanaşı, Xürrəmilər hərəkatının məzmun və mahiyyəti ilə bağlı qərb tarixçilərinin böyük qisminin fikirlərində obyektivliyə yaxın nəticələrin çoxluğu diqqəti cəlb edir ki, dissertasiya işində buna geniş yer verilmişdir. İlk növbədə Xürrəmilər hərəkatının Abbasilər xilafətinə qarşı yönəlməsi və ərəb kolonizminə qarşı xalq-azadlıq mübarizəsindən ibarət olması faktı yuxarıda qeyd olunanlarla birlikdə, bir çox qərb tarixçilərinin – Mark Uittou[33], U.Madelunq, B.Luis[34], Morris Lombard[35] və digərlərinin əsərlərinə istinadən bu dissertasiya işində əks olunmuşdur. Hərəkatın IX əsr mərhələsinin öndəri olmuş Babək Xürrəminin başlıca hədəflərindən birinin məhz Azərbaycanın azadlığı və müstəqilliyindən ibarət olması haqda qərb tədqiqatçılarından Edvin Rayt[36], Odri Altştad[37], V.Minorski[38], Patrisiya Kroun[39], B.Luis[40] və digərlərinin qeydlər etdikləri vurğulanmışdır.

Xürrəmilərin əqidə və dini-məzhəbi dünyagörüşləri sahəsində də qərb tədqiqatçılarının hasil etdikləri elmi nəticələr ənənəvi tarixşünaslığın tezislərindən əhəmiyyətli dərəcədə fərqlənir və böyük maraq doğurur. İstər Britannika Ensiklopediyasının və İslam Ensiklopediyasının məlumatlarına, istər ayrı-ayrı Avropa və Amerika tarixçilərinin marağa səbəb olan müxtəlif fikir və mülahizələrinə

---

[33] Whittow, Mark. The making of orthodox Byzantium: 600-1025. Berkley and Los Angeles: University of California Press, 1996, 477 s., s. 195, 203, 215

[34] Lewis, Bernard. The Arabs in history. Oxford: Oxford University Press, 2002, 240 pp., s.111

[35] Lombard, Maurice. The golden age of Islam. Princeton: Merkus Wiener Publishers, 2003, 259 s., s.152

[36] Wright, Edvin M. Babak of Badhdh and Afshin during the years 816-841 AD. I. // The Muslim World. Vol. XXXVIII. 1948, №1, s. 50

[37] Audrey L. Altstadt. The Azerbaijani Turks: power and identity under Russian rule. Stanford University. Stanford: Hoover Institution Press Publication, 1992, 334 s., s.155-156

[38] Minorsky, V.F. Caucasica IV. Sahl ibn Sunbat of Shakki and Arran. // Bulletin of the School of Oriental and African Studies. London: University of London. Vol. 15, №3 (1953), s. 504-529

[39] Crone, Patricia. The nativist prophets of Early Islamic Iran. Cambridge: Cambridge University Press, 2012, 586 s., s.76

[40] Lewis, Bernard. The political language of Islam. Chicago: University of Chicago Press, 1991, 184 s., s.134

dissertasiyada yer verilmişdir. Xürrəmilərin ezoterik İslam yönümlü sekta olduqları və İslam peyğəmbərinin qızının nəslindən olan imamlara inandıqları[41], şiə doktrinasının güclü təsirinə uğradıqları[42], eyni zamanda ənənəvi şəriət şiəçiliyindən fərqli olaraq sufi mistiklərinə həddən ziyadə yaxın olduqları[43], ənənəvi məzhəblərin şübhə ilə yanaşdığı tənasüx və ricət[44], hülul və ənəlhəqq[45] ideyalarını yaşatdıqları, özlərini peyğəmbər nəslindən gələcək Mehdinin tərəfdarları kimi tanıtdıqları[46], əqidəcə İslamın batiniyyə, ismailiyyə və qərmətiyyə[47], ələvilik və qızılbaşlıq[48] cərəyanlarına çox yaxın olduqları barədə Avropa və Amerika tədqiqatçılarının fikir və rəyləri dissertasiya işində müqayisəli şəkildə təhlil olunmuşdur.

Xürrəmilər hərəkatının öndəri Babək Xürrəmi ilə Bizans imperatoru Teofil arasında münasibətlər, Bizans ərazilərinə Xürrəmi köçləri, Xürrəmilərin Bizansda fəaliyyətləri mövzusunda Avropa və Amerika tarixşünaslığında aparılmış bir sıra araşdırmaların

---

41 http://www.britannica.com/EBchecked/topic/316875/Khorram-dinan

42 Whittow, Mark. The making of orthodox Byzantium: 600-1025. Berkley and Los Angeles: University of California Press, 1996, 477 s., s. 195

43 Walker, Benjamin. Foundations of Islam. London & Chester Springs: Peter Owen Publishers LTD, 1998, 464 s., s. 307

44 Robert B.Buckley. The early Shiite Ghulah. / Journal of Semitic Studies. Oxford: Oxford University Press, Autumn 2, XLII (1997), s.307;
Widengren, Geo. Babakiyah and the Mithraic Mysteries. in Ugo Bianchi, ed., Mysteria Mithrae (EPRO vol. 80), E.J.Brill. Leiden: 1979, s.676

45 Reuben, Levy, M.A. A Baghdad Chronicle. Cambridge: Cambridge University Press, 1929, 280 s., s.98

46 Van Vloten, Gerlof. Emevi Devrinde Arap Hakimiyeti, Şia ve Mesih Akideleri Üzerine Araştırmalar. trc. Mehmed Said Hatipoğlu. Ankara: Ankara Üniversitesi İlahiyat Fakültesi Press, 1986, 104 s., s.60
Crone, Patricia. The nativist prophets of Early Islamic Iran. Cambridge: Cambridge University Press, 2012, 586 s., s.64
Sourdel, D. Babak. / Encyclopaedia of Islam, Second Edition, vol. 1. Leiden: E.J.Brill, 1986, s.844

47 Crone, Patricia. The nativist prophets of Early Islamic Iran. Cambridge: Cambridge University Press, 2012, 586 s., s.180-181
Madelung, Wilferd Ferdinand. Khurramiyya. // Encyclopaedia of Islam. New edition. Vol. 5, second edition. Leiden: E.J.Brill, s.65

48 Savory, Roger M. Kizil-bash. / Encyclopaedia of Islam, vol. 5. Paris: online edition, 2005, s.243

nəticələrinə də dissertasiya işində toxunulmuşdur. Bu sırada C.Rosserin[49], U.Tredqoldun[50], K.Bosvörsün, M.Rekayanın[51], U.Madelunqun, D.Letsiosun[52], E.Venetisin[53] bu haqda fikir və mülahizələri bir araya gətirilərək dissertasiyanın üçüncü fəslində sistemli təhlil olunur.

Dissertasiya işində Xürrəmilər hərəkatının qərb tarixşünaslığı tədqiq edilərkən Türkiyə tarixçilərinin problemə sərgilədikləri mövqe və baxış bucağı da təhlil süzgəcindən keçirilmişdir. Türkiyə tarixşünaslığında Xürrəmilər hərəkatına obyektiv mövqe bildirməyə əngəl törədən amillər qismində əsasən Türkiyə tarixçilərinin Xürrəmilərə düşmən mövqedə olan Abbasi xəlifələrini dini-məzhəbi baxımdan Türkiyədə çoxluğun mənsub olduğu məzhəblərə yaxın zənn etməsi, xilafət məsələsində Abbasilərin xələfi rolunu oynamış Osmanlı hökmdarlarının yürütmüş olduğu dini-siyasi xətti dəstəkləyən mövqedən çıxış etməsi, həmçinin, hərəkatın öndəri Babək Xürrəminin Bizansla müttəfiqlik münasibətlərinin olması və Xürrəmilərin Bizans ordusu tərkibində Abbasi ordularına qarşı döyüşməsi səbəbindən onlara münasibətdə bir soyuqluq nümayiş etdirilməsi, eləcə də, Babək Xürrəminin məğlub edilərək ələ keçirilməsinə nail olmuş xilafət ordusu sərkərdəsi Afşin Hidr ibn Kavusun ənənəvi Türkiyə tarixşünaslığında "müsbət türk qəhrəmanı" obrazında təbliğ edilməsi kimi hallar təhlil edilmiş, bu münasibətin də öz növbəsində ənənəvi qərb və rus-sovet tarixşünaslığının mövqeyinin təsiri ilə möhkəmləndiyi və Türkiyə tarixçilərinin bir

---

[49] Rosser, J. Theophilus' Khurramite Policy and its Finale: The Revolt of Theophobus' Persian troops in 838. // Byzantina 6, 1974, s.268-269

[50] Treadgold, Warren T. A History of Byzantine State and Society. California: Stanford University Press, 1997, 1019 s.

Treadgold, Warren T. The Byzantine Revival: 780-842. Stanford: Stanford University Press, 1988, 504 s.

[51] Rekaya, Mohammad. Mise au point sur Theophobe et l'alliance de Babek avec Theophile (233-234/839-840). // Byzantion 44, 1977, s.47-64

[52] Letsios, Denetrios. Theophilos and his 'Khurramite' Policy: Some Reconsiderations. Graeco-Arabica, vol. 9-10, 2004, Athens: s. 249-271

[53] Venetis, Evangelos. Korramis in Byzantium. Encyclopaedia Iranica Online, http://www.iranicaonline.org/articles/korramis-in-byzantium New York, Columbia University Center for Iranian Studies, 2005

qayda olaraq hərəkatla bağlı tarixi məlumatları təkrarladığı vurğulanmışdır. Bu sırada Xürrəmilərin sinfi mübarizə aparan utopik kommunistlər olması barədə Enver Behnan Şapolyo[54], Yusuf Ziya İnan[55] və digərlərinin mülahizələri qeyd edilmişdir.

Eyni zamanda, Türkiyə tarixçilərinin əsərlərində Xürrəmilər hərəkatı ilə bağlı bir sıra maraqlı məlumatların da əks olunduğu qeyd edilir. Türkiyə tədqiqatçıları Bahriyye Üçok[56], Sebahattin Çelik[57], Hakkı DursunYıldız[58], Nesimi Yazıçı[59], Osman Turan[60], Abdülkerim Özaydın[61], Faruk Sümer[62], Sait Uylaş, Avni İlhan[63], Mehmet Şemsettin Günaltay[64], Nahide Bozkurt[65], Recep Uslu və digərlərinin əsərlərində Xürrəmilər hərəkatı və bu hərəkatın VIII-IX əsr mərhələləri müxtəlif səviyyələrdə tədqiq olunmuş, hərəkatın əhatə etdiyi Azərbaycan, İran və Xorasan bölgələri haqda tarixi

---

[54] Şapolyo, Enver Behnan. Mezhepler ve tarikatlar tarihi. İstanbul: Milenyum Yayınları, Elif Kitabevi, 2013, 555 s., s. 389-445

[55] Yusuf Ziya İnan. İslam tarihinde ilk komünist hareketi ve bastırılışı: Babek isyanı. İstanbul: Bayramaşık Yayınevi, 1976, 89 s., s.16-17

[56] Üçok, Bahriyye. İslam tarihi: Emeviler-Abbasiler. Ankara Üniversitesi İlahiyat Fakültesi Yayınları, LXXXI. Ankara: Sevinç Matbaası, 1968, 210 s., s.99-102

[57] Çelik, Sebahattin. Abbasiler döneminde Hürremiyye mezhebi ve Babek isyanı. // Balıkesir Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, cilt 9, sayı 15. Balıkesir: 2006, s.95-105

[58] Yıldız, Hakkı Dursun. Abbasiler. / İ.A. cilt 1. Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 1970, s.36

Yıldız, Hakkı Dursun. Babek. / D.İ.A. cilt 4. İstanbul: 1991, s. 376-377

[59] Yazıçı, Nesimi. İlk Türk-İslam devletleri tarihi. Ankara Üniversitesi İlahiyat Fakültesi Yayınları, №192. Ankara: 1992, 146 s., s. 23-24

[60] Osman Turan. Babek. / İslam Ansiklopedisi. Cilt II. İstanbul: 1944, s.173

[61] Özaydın, Abdülkerim. Arran. / İ.A. Cilt III. Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 1970, s. 394-395

[62] Sümer, Faruk. Abbasiler döneminde Orta Asya'lı bir prens: Afşin. / Türk Tarih Kurumu (TTK) Belleteni, c.LI / sayı 200, 1987, s. 654-665

Sümer, Faruk. Afşin. /İ.A. cilt I. Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 1970, s.655

[63] İlhan, Avni. Batıniyye. / İ.A. Türkiye Diyanet Vakfı Yayınları. Cilt V. Ankara: 1970, s.191

[64] Günaltay, Mehmet Şemsettin. Abbasoğulları. // Türk Tarih Kurumu Belleteni, VI/23-24, 1942, s. 177-205

[65] Bozkurt, Nahide. Mu'tezilenin altın çağı: Memun dönemi. I. Baskı. Ankara: Ankara Okulu Yayınları, 2002, 142 s.

məlumatlara, Babək Xürrəmi və onu məğlub etmiş xilafət ordusunun sərkərdələri Afşin Hidr ibn Kavus, Buğa əl-Kəbir, Əbu Sac Divdad, İtax və Cəfər əl-Xəyyatın barəsində fikirlərə yer verilmişdir.

Dissertasiya işində dördüncü qrup üzrə Xürrəmilər hərəkatı ilə bağlı çar Rusiyası və SSRİ dönəmində aparılmış tədqiqat işlərini əks etdirən materiallar bir araya gətirilmiş, yeni dövrün Rusiya tarixçilərinin mövzu ilə bağlı yanaşmalarına da yer ayrılmışdır. Qeyd olunmuşdur ki, çar Rusiyası dövründə Xürrəmilər hərəkatı mövzusuna maraq daha çox pravoslav Bizans dövrünə aid mənbələrdə Xürrəmilərlə bağlı çoxsaylı məlumatların olmasından qaynaqlanmış, həmçinin, görkəmli Azərbaycan mütəfəkkiri Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində hərəkata və Babəkə aid qeydlər sözügedən mövzuya elmi dairələrdə marağın artmasına səbəb olmuşdur. Bu dövrdə çıxan bir sıra ədəbiyyat və əsərlərdə Xürrəmilər hərəkatı, onun VIII əsrdə ən məşhur lideri Əbu Müslüm Xorasani, IX əsr mərhələsinin öndəri Babək Xürrəmi və Bizansa köç etmiş Xürrəmilərin rəhbəri Nəsirlə bağlı məlumatlara rast gəlinir. Bu sırada V.A.Abaza, F.Uspenski, A.Müller[66], A.Vasilyev[67], A.Krımski[68], V.Bartold[69] və digərlərinin əsərlərindəki məlumatlar müxtəlif aspektlərdən təhlil olunmuşdur. İctimai quruluşun dəyişməsi və SSRİ adlı dövlətin tarix səhnəsinə çıxması ilə tarix sahəsində aparılan araşdırma və tədqiqat işləri yeni mərhələyə qədəm qoymuş, hakim kommunist ideologiyasının tarixi əsaslarının və tarixi sinfi mübarizə motivlərinin axtarışı çərçivəsində Xürrəmilər hərəkatına münasibətdə bir sıra təhriflərə yol verilmiş, Xürrəmilərin apardığı azadlıq mücadiləsi və onların dini-fəlsəfi dünyagörüşlərinin tədqiqi arxa plana keçirilərək bu hərəkatın sırf sinfi mübarizəni əks etdirən üsyan

---

[66] Мюллер, Август. История Ислама. С основания до новейших времен. пер. с немецкого под ред. приват-доцента Н.А.Медникова. Том I-II. Санкт-Петербург: Издание Л.Ф.Пантелеева, 1895, 385 s.

[67] Васильев, Александр А. Византия и арабы. Политические отношения Византии и арабов за время Аморийской династии. Санкт-Петербург: Типография И.Н.Скороходова, 1900, 407 s.

[68] Крымский А.Е. История арабов, их халифат, их дальнейшие судьбы и краткий очерк арабской литературы. Москва: Издание Д.В.Солодова и В.Ф.Павловского, Типо-литография В.Рихтер, 1903, 296 s.

[69] Бартольд В.В. Историко-географический обзор Ирана. Санкт-Петербург: Типография Киршбаума, 1903, 176 s.

olması, yerli feodal və mülkədarlara qarşı yönəlməsi, Xürrəmilərin utopik sosializm carçıları olması və İslam dininə qarşı mövqe tutması haqda mülahizələr elmi dövriyyəyə buraxılmışdır. Sovet tarixçi-alimlərindən Mixail Tomara[70], Y.Belyayev[71], İ.P.Petruşevski[72], N.V.Piqulevskaya, A.Y.Yakubovski[73], Y.Manandyan, T.Ter-Qriqoryan, S.T.Yeremyan, A.İ.Kolesnikov, V.İ.Abayev, B.N.Zaxoder[74] və digərləri öz əsərlərində Xürrəmilər hərəkatı mövzusuna toxunmuş, hərəkatın Babəkə qədərki dövr və mərhələlərini, Xürrəmilərin ideya sələflərini bu əsərlərdə təhlil etməyə çalışmışlar. Sovet dövründə Azərbaycanın tanınmış tarixçi-alimlərinin Xürrəmilər hərəkatı probleminə həsr olunmuş əsərləri Vətən tarixşünaslığı çərçivəsində tədqiq edildiyinə görə dissertasiya işinin ilk qrupunda əks olunmuşdur. Dissertasiya işinin dördüncü qrupuna həmçinin SSRİ-nin çöküşündən sonrakı dövrdə müstəqil Rusiya tarixşünaslığında Xürrəmilər hərəkatı mövzusuna bu və ya digər dərəcədə toxunmuş tədqiqatçıların fikir və mülahizələrinə də yer verilmişdir. Bu sırada T.İrmiyayeva[75] və İ.M.Filştinskinin[76] tədqiqat işlərini qeyd etmək olar.

---

70 Томара М.Л. Бабек. Из серии «Жизнь замечательных людей». Москва: Издательство «Журнально-газетное объединение», 1936, 200 s.

71 Беляев Е.А. Арабы, ислам и арабский халифат в раннее средневековье. Второе издание. Москва: Издательство «Наука», гл. ред. восточной лит., 1966, 279 s.

Беляев Е.А. Мусульманское сектантство. Исторические очерки. Институт Востоковедения Академии Наук СССР. Москва: Издательство восточной литературы, 1957, 102 s.

72 Петрушевский И.П. Ислам в Иране в VII-XV веках (курс лекций). Ленинград: Издательство Ленинградского Университета, 1966, 400 s.

Петрушевский И.П. История Азербайджана. Краткий очерк с древнейших времен до XIX века. Баку: Издательство Аз.ФАН, 1941, 211 s.

73 Якубовский А.Ю. Восстание Муканны – движение людей в «белых одеждах». / Советское Востоковедение, том V. Москва-Ленинград: 1948, s.48-51

74 Заходер Б.Н. История восточного средневековья. Халифат и ближний восток. Москва: Издательство МГУ, 1944, 152 s.

75 Ирмияева Т.Ю. История мусульманского мира от халифата до блистательной порты. Пермь: издательско-полиграфический комплекс «Звезда», 2000, 111 s., s.54-61

76 Фильштинский И.М. История арабов и халифата (750-1517 гг.). Москва: Восток-Запад, 2006, 352 s., s. 43-96

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti kimi Xürrəmilər hərəkatının tarixşünaslığı seçilmişdir. Azərbaycan tarixinin IX əsr dövrünün ən mühüm hadisələrindən biri olan Xürrəmilər hərəkatının məqsədləri və məzmunu, xürrəmi təlimi və ideyaları, xürrəmilərin dini-fəlsəfi dünyagörüşü, sosial tələbləri, hərəkatın sosial tərkibi, bu hərəkatın Babəkə qədərki və Babəkdən sonrakı mərhələlərində baş vermiş hadisələr, Azərbaycanda ərəb ağalığına qarşı xalq-azadlıq hərəkatına rəhbərlik etmiş Babək Xürrəminin şəxsiyyəti, həyat fəaliyyəti, siyasi statusu və oynadığı rol, həmçinin, xürrəmilərin digər siyasi güc mərkəzləri və qüvvələrlə - Bizansla, Təbəristanla, Xorasanla, batinilərlə, qərmətilərlə, ismaililərlə və s. əlaqələri və digər məsələlər barədə bu günədək tarix elmində aparılmış elmi-tədqiqat işləri və araşdırmaların nəticələrinin sistemli və müqayisəli təhlili tədqiqatın əsas predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi VIII-IX əsrlərdə ərəb xilafətinə qarşı geniş vüsət almış Xürrəmilər hərəkatının tarixşünaslığının tədqiq edilməsi, Xürrəmilər hərəkatı problemi ilə bağlı mövcud ədəbiyyatların bir araya gətirilərək tədqiqata cəlb edilməsi yolu ilə hərəkatın tarixi, məzmunu, mahiyyəti, mərhələləri, əhatə etdiyi coğrafiya, siyasi, dini-fəlsəfi və ideoloji tərəflərinin müəyyən edilməsindən ibarətdir. Qeyd olunan məqsədi nəzərə alaraq, dissertasiyada aşağıdakı vəzifələr öz əksini tapmışdır:

- VIII-IX əsrlərdə Xürrəmilər hərəkatının ortaya çıxma səbəblərinin təhlili əsasında Xürrəmilər hərəkatı problemini tədqiq etmək;
- Xürrəmilər hərəkatının mərhələlərini ayrı-ayrılıqda və xronoloji ardıcıllıqla araşdırmaq və bu mərhələlərin bir-biri ilə sistemli əlaqə və bağlantısını müəyyən etmək;
- Xürrəmilər hərəkatının Vətən tarixşünaslığını tədqiq etmək və Azərbaycan tarixçilərinin və tədqiqatçılarının araşdırmalarını mövcud ədəbiyyatlar çərçivəsində təhlil etmək;
- Xürrəmilər hərəkatı mövzusu ilə bağlı İran, Avropa, Amerika, Türkiyə, Rusiya və Sovet tarixşünaslığında mövcud olan mövqe və yanaşmaları sistemli şəkildə tədqiqata cəlb etmək və obyektiv şəkildə qiymətləndirmək;

- Hərəkatın Babək Xürrəminin öndərlik etdiyi IX əsr mərhələsinin başlıca hədəflərindən birinin Azərbaycanın müstəqilliyi ideyasından ibarət olması barədə faktoloji materialları sistemləşdirmək;

- Xürrəmilər hərəkatının bölgədəki siyasi proseslərə təsiri, eləcə də, Xürrəmilərin Bizansla əlaqə və münasibətləri, o zamankı Bizans ərazilərinə (Anadolu coğrafiyasına) köçləri və oradakı fəaliyyətləri ilə bağlı məlumatları, həmçinin, hərəkatın dini-fəlsəfi və ideoloji prinsiplərini təhlil etmək;

- Xürrəmilər hərəkatı mövzusu çərçivəsində gələcək tədqiqat işlərində istifadə oluna biləcək zəruri ədəbiyyatın bir araya gətirilərək toplanmasına və tarixi-müqayisəli metodla analiz edilməsinə nail olmaq.

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını tarixilik və obyektivlik, problemə nəzəri və konseptual yanaşma, sistem-struktur prinsipləri təşkil edir. Hər üç prinsipin bir arada, qarşılıqlı əlaqədə tədqiq edilməsi Xürrəmilər hərəkatının tarixşünaslığı mövzusunda elmi-tədqiqat işi apararaq problemin tədqiqi üzrə bu günədək ərsəyə gətirilmiş əsərlərin, elmi məqalə və araşdırmaların, fikir və mülahizələrin struktur bölgüsü əsasında sistemləşdirilməsini təmin etməyə imkan verir. Tədqiqat işində eyni zamanda tarixi-müqayisəli və tarixi-sistem kimi zəruri elmi metodlardan da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan başlıca müddəalar aşağıdakılardan ibarətdir:

- Xürrəmilər hərəkatı mövzusunda Azərbaycan tarixçilərinin və tədqiqatçılarının ərsəyə gətirdiyi ədəbiyyatların bir araya gətirilərək Xürrəmilər hərəkatının Vətən tarixşünaslığının tədqiqi;

- Xürrəmilər hərəkatı probleminə İran tarixçilərinin mövqeyinin müəyyənləşdirilməsi;

- Xürrəmilər hərəkatı barədə qərb tədqiqatçılarılarının fikir və mülahizələrinin sistemli şəkildə tədqiqata cəlb edilməsi, Avropa, Amerika və Türkiyə tarixçilərinin hərəkatla bağlı mövqelərinin müəyyən edilməsi;

- Xürrəmilər hərəkatı mövzusunda rus və sovet tarixçilərinin əsərlərinin təhlil edilməsi yolu ilə hərəkatın məzmun və

mahiyyətinin, Xürrəmilərin mübarizə amallarının və ideyalarının təhrif edilməsi hallarını müəyyən etmək və rus-sovet tarixşünaslığının, eləcə də, müstəqil Rusiya tarixçilərinin Xürrəmilər hərəkatı probleminə olan yanaşmalarını sistemləşdirmək;

- Xürrəmilər hərəkatı sırf sinfi mübarizə xarakterli bir kəndli üsyanı olmamış, bir əsrdən artıq davam edən, Abbasilər xilafətinə qarşı yönəlmiş, yaxın Şərq, ön Asiya, Qafqaz, İran və Xorasan coğrafiyasını əhatə edən nəhəng bir azadlıq hərəkatı olmuşdur.
- Xürrəmilər hərəkatının VIII və IX mərhələləri özünün ideya əsasları və hədəflər baxımından eyni, məzmun və fəaliyyət istiqamətləri baxımından isə fərqli olmuş, hər bir mərhələnin öz rəhbəri (öndəri) olmuşdur.
- Xürrəmilər hərəkatının daha geniş vüsət alan və uzun müddət davam edən IX əsr mərhələsi əsasən Azərbaycan tarixi coğrafiyası ilə bağlı olmuş, nəticə etibarilə bölgədə ərəb xilafətindən asılı olmayan müstəqil bir dövlət qurumunun yaradılmasına gətirib çıxarmışdır ki, bu da hərəkatın IX əsr mərhələsinin əsas rəhbəri olan Babək Xürrəminin sadəcə bir üsyan başçısı yox, siyasi statusa malik bir dövlət xadimi olmasını söyləməyə əsas verir.
- Xürrəmilər hərəkatının nəzəri-ideya əsaslarının təhlili xürrəmilərin İslamdaxili bir cərəyan olub, İslamın batinilər qoluna mənsub olduğunu, Abbasilər xilafətinin hakim sülaləsinin mənsub olduğu mötəzilə məzhəbinə zidd olan və geniş xalq kütlələri tərəfindən dəstəklənən İslami əqidəyə malik olduqlarını söyləməyə əsas verir. Ənənəvi şəriət məzhəblərinin doqmalarından tamamilə fərqli olan bu İslami əqidə xalq İslamına mənsub olan digər cərəyanların dini baxışlarına olduqca yaxın olmuş, özündə sufi İslamına məxsus prinsip və müddəaları ehtiva etmiş, ezoterik-batini məzmun daşıyan ideyaları əks etdirmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk növbədə Xürrəmilər hərəkatının tarixşünaslığı tarixi-struktur bölgüsü üzrə sistemli şəkildə tədqiq olunmuş, problemin həllində ilk dəfə Azərbaycan, İran, Avropa, Amerika, Türkiyə və Rusiya tarixçilərinin və tədqiqatçılarının əsərləri tədqiqata cəlb edilərək müvafiq fəsillər üzrə işıqlandırılmış və Xürrəmilər hərəkatı problemi bu ədəbiyyatlardan geniş istifadə edilməklə yenidən öyrənilmişdir.

Bundan əlavə, tarix elmində ilk dəfə olaraq Xürrəmilər hərəkatının vətən tarixşünaslığı ayrıca bölüm kimi ərsəyə gətirilmiş, Azərbaycanın tanınmış tarixçi-alimlərinin Xürrəmilər hərəkatı problemi ilə bağlı ərsəyə gətirdikləri əsərlər, onların irəli sürdüyü fikir və müddəalar, eləcə də, gənc tarixçi və tədqiqatçıların fərziyyə və mülahizələri geniş təhlil edilmişdir. Dissertasiyada ilk dəfə olaraq rus-sovet tarixşünaslığında Xürrəmilər hərəkatının məzmunu və mahiyyəti, dini-fəlsəfi və ideoloji prinsiplərində əks olunan bir çox məqamların təhrif edildiyi aydınlaşdırılmışdır. Sovet və müstəqil Rusiya tarixçilərinin hərəkata olan münasibətlərindəki fərqli cəhətlər dissertasiya işində detallı şəkildə incələnmiş və araşdırılmışdır.

Dissertasiya işində elmi yeniliklərdən biri də ənənəvi tarixşünaslığın tezisləri ilə paralel olaraq, Xürrəmilərin İslamdaxili cərəyan olması, ifrat şiə firqələri sırasında qeyd olunması, əqidə əsaslarının digər İslam təriqətlərinin, xüsusən, ismaililik, qərmətilik, sufilik, ələvilik, hürufilik və qızılbaşlığın əqidə əsasları ilə eyniyyət təşkil etməsi barədə tarixi məlumat bazasının elmi dövriyyəyə daxil edilməsindən ibarətdir. Bu kontekstdə Xürrəmilər hərəkatına düşmən mövqe bəsləmiş Abbasilər xilafətinin hakim sülaləsinin dini-məzhəbi baxışlarına da yeni yanaşma sərgilənmişdir. Eyni zamanda, Babəkin öndərliyi ilə Xürrəmilər hərəkatının bölgədə xilafətdən asılı olmayan müstəqil dövlət qurumu ərsəyə gətirməsi barədə tarixi faktların ilk dəfə olaraq dissertasiya işində əks olunması hərəkatın və onun öndəri Babək Xürrəminin siyasi statusu məsələsinə aydınlıq gətirilməsinə zəmin yaratmaq baxımından tədqiqat işinin elmi yeniliyi hesab oluna bilər.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işində təhlil olunan çoxsaylı fakt və materiallardan, toplanmış ədəbiyyatlardan və çıxarılan elmi nəticələrdən Xürrəmilər hərəkatı probleminin tədqiqi ilə bağlı gələcək araşdırma və elmi-tədqiqat işlərində, həmçinin, müvafiq ali tədris müəssisələrində Azərbaycan tarixinin, ön Asiya, yaxın və orta Şərq ölkələri tarixinin, İran tarixinin tədrisi zamanı, xüsusən tarixşünaslıq, mənbəşünaslıq və təriqətşünaslıq kimi sahələrdə elmi yeniliklər etmək məqsədilə istifadə oluna bilər. Azərbaycanın milli dövlətçilik tarixinin

tədqiqində dissertasiya işinin məzmunundan irəli gələn məsələlər böyük fayda verə bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın ilk müzakirəsi Azərbaycan Universitetinin humanitar elmlər fakültəsinin ictimai elmlər kafedrasının 15 aprel 2019-cu il tarixli iclasında, ikinci müzakirəsi isə 16 aprel 2021-ci il tarixli iclasında keçirilmişdir. Tədqiqatın əsas məzmunu ilə bilavasitə bağlı olan məsələlərə müəllifin iki monoqrafiya və ona yaxın elmi məqaləsində toxunulmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Universitetinin humanitar elmlər fakültəsinin ictimai elmlər kafedrasında yerinə yetirilmiş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın strukturu.** 164 səhifədə təqdim edilmiş dissertasiya işi Giriş – 13 səhifə (25 333 işarə), 2 yarımfəsildən ibarət dörd fəsil – 125 səhifə (245 088 işarə), Nəticə – 10 səhifə (19 507 işarə) və İstifadə olunmuş ədəbiyyat siyahısından – 18 s. ibarətdir. Dissertasiya işinin ümumi həcmi ədəbiyyat siyahısı istisna olmaqla cəmi 289 928 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanin **Giriş** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılaraq araşdırılır, dissertasiya işində qarşıya qoyulan məqsəd və vəzifələr, tədqiqatın xronoloji çərçivəsi müəyyənləşdirilir, tədqiqatın obyekti və predmeti, nəzəri və metodoloji əsasları, həmçinin, elmi-təcrübi faydaları qeyd olunur, eyni zamanda, mövzunun tarixşünaslıq və mənbə bazası təhlil olunur.

Dissertasiyanın **I fəsli "Xürrəmilər hərəkatının vətən tarixşünaslığı"** adlanır. Bu fəsildə Azərbaycanın tanınmış tarixçi və tədqiqatçılarının hərəkatın tarixi, məzmunu, hədəfləri, sosial tərkibi, öndərləri, coğrafiyası, ideya əsasları barədə tədqiqatları sistemləşdirilərək bir araya gətirilmiş və müqayisəli şəkildə təhlil olunmuşdur. Xüsusi olaraq vurğulanmışdır ki, məhz Azərbaycan tarixçilərinin zəhməti sayəsində Xürrəmilər hərəkatının IX əsr

mərhələsinin Azərbaycan tarixi-coğrafi arealına məxsus bir hadisə olması fikri tarix elmində möhkəmlənmiş, hərəkatın ərəb xilafətinə qarşı xalq-azadlıq mübarizəsini əks etdirməsi müddəası çoxsaylı ciddi elmi əsaslarla sübuta yetirilməklə onun sırf sosial tələblərlə çıxış edən və sinfi mübarizə xarakteri daşıyan kəndli üsyanı olması fikri tədricən arxa plana keçirilmişdir. Azərbaycan tarixçilərinin sovet dövründə ictimai quruluşun tələblərindən irəli gələrək çətin şəraitdə Xürrəmilər hərəkatı problermini tədqiq etdikləri, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə tarix sahəmizdə bir sıra problemlərlə yanaşı, Xürrəmilər hərəkatı probleminin də müstəqil və obyektiv tədqiqi üçün əlverişli şərait yarandığı qeyd olunmuşdur. Xürrəmilər hərəkatının vətən tarixşünaslığı üzrə Azərbaycanın tanınmış tarixçiləri Z.İbrahimov, Z.İ.Yampolski, Z.Lənkəranlı, Z.Bünyadov, N.Vəlixanlı, E.Əzizov, M.X.Şərifli və digərlərinin mövzu ilə bağlı araşdırmaları bu fəsildə dərindən analiz edilmiş, çoxsaylı müqayisəli təhlillər aparılmaqla bir sıra mühüm əhəmiyyət kəsb edən məsələlərə aydınlıq gətirilmişdir. Eyni zamanda, dissertasiya işinin ilk fəslində müstəqil Azərbaycanın tarix sahəsində Xürrəmilər hərəkatı mövzusu ilə bağlı elmi araşdırmalar aparmış gənc tədqiqatçıların fikir və mülahizələrinə də yer verilmişdir.

Dissertasiya işinin **II fəsli "Xürrəmilər hərəkatının İran tarixşünaslığı"** adlanır. Bu fəsildə Xürrəmilər hərəkatı mövzusu barədə İran tarixçilərinin və tədqiqatçı-alimlərinin əsərlərində keçən müddəa və fikirlərə aydınlıq gətirilir. Təhlillər zamanı qeyd olunur ki, İran tarixşünaslığında Xürrəmilər hərəkatına olan münasibət əsasən İranın mövcud hakim dairələrinin və dini-məzhəbi elitasının baxışlarının təsiri altında formalaşmışdır. Xürrəmilik əqidəsi tarixi mənbələrin məlumatlarında daha çox İslamdaxili bir cərəyan və təriqət kimi nəzərdən keçirilsə də, İran tarixçilərinin hərəkata olan mövqeyi birmənalı deyil. Bu da, zənnimizcə, ilk növbədə Xürrəmilər hərəkatının bu mərhələdə Azərbaycanın müstəqillik ideyasını həyata keçirməsi amili ilə, həmçinin, İran alimlərinin daha çox istinad etdikləri fars mənbə müəlliflərinin bu hərəkata düşmən mövqedən yanaşması və Abbasi sarayının tərəfini tutması ilə, daha sonra isə Xürrəmilərin əqidə əsaslarının və dini-məzhəbi dünyagörüşlərinin

İran hakim dairələrinin və alimlərinin söykəndiyi şəriət müstəvisində izah olunmaması faktı ilə əlaqədardır. Mənbələrdə İslam peyğəmbərinin nəslindən gələn imamlara inandıqları, Mehdinin zühurunu gözlədikləri məxsusi olaraq qeyd olunan Xürrəmilərin əqidə əsaslarında olan əhli-beyt sevgisi və son imamın qayıdışı ilə bağlı olan ricət inancı zahirən İranın hakim məzhəbinin ideoloji əsaslarına uyğun görünsə də, Xürrəmi inancında olan hülul, təcəlla, tənasüx (ruhların qayıdışı), donbadon, ənəlhəqq ideyaları xalq İslamı cərəyanlarının əqidə əsasları ilə daha çox uyğun gəldiyinə və ənənəvi şiə dünyagörüşündən fərqli olduğuna görə, İranın tarixçi-alimləri və tədqiqatçıları bir qayda olaraq Xürrəmilərə son dərəcə ehtiyatlı, bəzənsə açıq neqativ mövqe nümayiş etdirməkdədir. Bununla yanaşı, Səid Nəfisi, Əbdülhüseyn Zərrinkub, Əbuzər Vərdəsbi və digərlərinin Xürrəmilər hərəkatı probleminə nisbətən daha obyektiv və qərəzsiz yanaşdıqları dissertasiya işinin II fəslindəki təhlillərdə qeyd olunur. Ümumən Xürrəmilər hərəkatının İran tarixşünaslığı özündə hərəkatın tarixi və məzmunu, öndərləri və öncəki mərhələləri barədə bir çox maraqlı məlumatları əks etdirməsi baxımından Xürrəmilər hərəkatı probleminin tədqiqində bu məlumat bazasından istifadə edilməsinin zəruriliyi dissertasiya işində vurğulanır.

Dissertasiya işinin **III fəsli "Xürrəmilər hərəkatı qərb tarixşünaslığında"** adlanır. Bu fəsildə Xürrəmilər hərəkatı mövzusunda Avropa tarixçilərinin, eləcə də, Amerika tədqiqatçılarının və Türkiyə tarixçi-alimlərinin fikir və mülahizələri bir araya gətirilmiş, məzmun baxımından müqayisəli təhlil olunmuşdur. Fəsil iki yarımfəsildən ibarətdir. **"Xürrəmilər hərəkatı Avropa və Amerika tarixşünaslığında**" adlı ilk yarımfəsildə Avropa tarixçi-alimlərinin hərəkatın tarixi ilə bağlı öz əsərlərində qeyd etdiyi tezislər və müddəalar əks olunmuşdur. Qeyd olunmuşdur ki, Xürrəmilər hərəkatı mövzusunda ilk dəfə tədqiqata cəlb olunan Avropa və Amerikanın tarixçi və tədqiqatçılarının əsərləri problemə daha sərbəst yanaşma tərzi ilə seçilir. Avropa tarixçilərinin Xürrəmilər hərəkatına olan mövqelərində ənənəvi rus-sovet tarixşünaslığının təsirləri müəyyən səviyyədə hiss olunsa da, paralel olaraq aparılmış tədqiqat işlərində və araşdırmalarda problemin bir çox aspektlərinə daha obyektiv münasibət göstərilməsi Avropa və

Amerika tarixşünaslığını səciyyələndirən xüsusiyyətlərdəndir. İstər Xürrəmilərin dini-məzhəbi dünyagörüşləri, istər Xürrəmi-Bizans əlaqələri, istərsə də hərəkatın məzmun və mahiyyəti ilə əlaqədar Klement Huart, Rocer Seyvori, Dominik Sourdel, Robert Bakli, Benyamin Uolker, Royben Levi, Patrisiya Kroun, Bernard Luis kimi qərb tarixçilərinin əsərlərində çoxsaylı maraq doğuran və həqiqətə yaxın olan müddəalar və fikirlər əks olunmuşdur ki, bu da Xürrəmilər hərəkatı probleminə yeni yanaşmaların ərsəyə gətirilməsinə əlverişli zəmin yaradır. **"Xürrəmilər hərəkatı Türkiyə tarixşünaslığında"** adlanan 2-ci yarımfəsildə ilk dəfə olaraq qərb tarixşünaslığının tərkib hissəsi kimi Türkiyə tarixşünaslığının Xürrəmilər hərəkatına olan münasibətini əks etdirən ədəbiyyatlar cəm edilmişdir. Yarımfəsildə Türkiyə tarixçilərinin və tədqiqatçı-alimlərinin əsərlərində Abbasilər dövrünün ən böyük üsyanı olaraq görülən Xürrəmilər hərəkatının VIII-IX əsr mərhələlərinin tarixi qaynaqların məlumatları əsasında təhlil edildiyi, bir sıra hallarda bu təhlillərdə həmin məlumatların obyektivlik dərəcəsinin araşdırılmadığı, həmçinin, bu hərəkatın dini-fəlsəfi və ideoloji tərəfləri ilə bağlı ənənəvi tarixşünaslıqda formalaşmış şablon müddəaların bir çox hallarda təkrar edildiyi qeyd olunmuşdur. Bununla əlaqədar dissertasiya işində aparılan təhlillər onu göstərir ki, Türkiyə tarixçilərinin ümumən Xürrəmilər hərəkatına münasibətdə sərgilədiyi laqeyd mövqe eyni zamanda həm də xilafət faktorundan irəli gələrək Abbasilərin Türkiyə tarix elmində müsbət tərəf olaraq qəbul edilməsi və Xürrəmi-Bizans əlaqələri ilə də bilavasitə bağlıdır.

Dissertasiya işinin **IV fəsli "Xürrəmilər hərəkatının rus, sovet tarixşünaslığı"** adlanır. Bu fəsildə çar Rusiyası dövründən etibarən rus tarixçilərinin diqqətinin Xürrəmilər hərəkatı mövzusuna yönəldiyi, bununla əlaqədar elmi ədəbiyyatlarda ilkin məlumatların yer aldığı, SSRİ-nin yaradılmasından sonra bu problemin tədqiqinin tədricən genişləndiyi, eyni zamanda, hakim kommunist ideologiyasının tələblərindən irəli gələrək hərəkatın sırf sinfi mübarizəni əks etdirən kəndli üsyanı kimi təqdim olunmaqla məzmun və mahiyyətinin təhrif edildiyi qeyd olunur, rus-sovet tarixçilərinin mövzu ilə bağlı araşdırmalarında diqqəti cəlb edən bir sıra məqamlar təhlil edilir. Dissertasiya işinin bu fəslində həmçinin

SSRİ-nin çöküşündən sonrakı dövrdə ərsəyə gətirilən ədəbiyyatlarda Xürrəmilər hərəkatı barədə sovet dövründə diqqətdən kənarda saxlanılmış bəzi mühüm məsələlərin obyektivliyə yaxın bir şəkildə araşdırıldığı vurğulanır.

Dissertasiyanın **Nəticə** hissəsində aparılan tədqiqata yekun vurularaq nəticələr ümumiləşdirilmişdir. Tədqiqatın yekununda əldə edilmiş elmi nəticələr aşağıdakılardan ibarətdir:

1. Mövcud ədəbiyyatların təhlili nəticəsində Xürrəmilər hərəkatının və xüsusən də bu hərəkatın Babəkin rəhbərliyi altında baş vermiş IX əsr mərhələsinin nəzəri-ideoloji baxımdan kommunist xarakterli olmadığı, sırf anti-feodal səciyyə daşımadığı, kəndlilərin istismarçı siniflərə qarşı mübarizəsindən ibarət olmadığı məlum olur.

2. Xürrəmilər hərəkatı Abbasilər sülaləsinin hakimiyyətinin ilk illərindən başlayaraq bir əsrdən artıq davam etmiş nəhəng bir hərəkat kimi, tarixşünaslıqda səkkiz əsas mərhələ üzrə tədqiq edilməlidir. İdeya əsasları eyni olan, lakin hər biri məzmun və fəaliyyət etibarilə fərqlənən bu mərhələlər, Əbu Müslümün Əməvilərə qarşı üsyanı nəzərə alınmazsa, aşağıdakılar kimi qəbul edilə bilər: 1. Sünbadın üsyanı (sünbadiyyə) (755-ci il); 2. İshaq ət-Türkinin üsyanı (755-757-ci illər); 3. Üstadsızın (İstadsisin) üsyanı (767-769-cu illər); 4. Muqənnə (Muğanna) ləqəbli Haşim ibn Hakimin üsyanı (mübəyyizə yaxud ağ geyinmişlər) (775-776-cı illər); 5. Əbdülqəhharın (Əbu əl-Qərra) və Əmr ibn Məhəmmədin rəhbərliyi ilə Qorqan batinilərinin üsyanları (sorxələm yaxud qırmızı bayraqlılar) (778-796-cı illər); 6. Cavidanın dövrü (808-816-cı illər); 7. Babəkin rəhbərliyi altında Azərbaycanda baş qaldırmış üsyan (Babəkilər, muhəmmirə yaxud qırmızı geyinmişlər) (816-837-ci illər); 8. Qarun oğlu Məzyarın rəhbərliyi ilə Təbəristan xürrəmilərinin üsyanı (838-840-cı illər). Hərəkatın bu mərhələləri arasında daha çox Babəkin rəhbərlik etdiyi dövrün xürrəmiləri "muhəmmirə" (al donlular yaxud qırmızı geyinmişlər) kimi tanınır.

3. Babəkin rəhbərliyi altında Xürrəmilər hərəkatının əsas məqsədləri sırasında ön planda Azərbaycanın ərəb işğalından azad olması amilinin dayandığı, bu hərəkatın ilk növbədə xalq-azadlıq mübarizəsi xarakteri daşıdığı fikri təsdiqlənmişdir. Eyni zamanda, xalq-azadlıq hərəkatının məntiqi nəticəsi kimi, bölgədə ərəb

xilafətindən asılı olmayan müstəqil dövlət qurumunun 21 ildən artıq müddət ərzində mövcud olduğu aşkar olunmuşdur.

4. Babək Xürrəmi yalnız bir üsyan başçısı və hərəkat öndəri olmamış, bölgədə faktiki 21 ildən artıq mövcud olmuş dövlət qurumunun rəhbəri və hökmdar statusuna malik olmuşdur. Bir hökmdar qismində o, qonşu dövlətlərlə rəsmi şəkildə yazışmalar həyata keçirmiş, müxtəlif əyalətlərə valilər təyin etmiş, şimali və qərbi Azərbaycan ərazilərinə yürüşlər edərək öz qayda-qanunlarını bərqərar etmiş, dövlətə və öz idarəçiliyinə zidd üsyanları yatırtmışdır. Babəkin idarə etdiyi bu dövlət qurumunun ideoloji təməlləri xürrəmiyyə təriqətinin ideyalarından təşəkkül tapmışdır. Paytaxt şəhəri Bəzz qalası olan bu dövlət qurumu 837-ci ilin avqust ayının sonlarında ərəb qoşunlarının işğalı nəticəsində süqut etmişdir.

5. Çoxsaylı mənbə məlumatları və onlara istinad edən qərb tarixçilərinin fərziyyələri əsasında xürrəmilərin dini baxımdan İslama mənsub bir cərəyan olduqları, Allahı, mələkləri, peyğəmbərləri, Quranı qəbul etdikləri, Quranı batini məna yozumları ilə təfsir etdikləri, İslam peyğəmbərinin əhli-beytinə dərin hörmət və ehtiram bəslədikləri, əhli-beytin on ikinci imamı Mehdinin zühurunu gözlədikləri üzə çıxarılmışdır.

6. Xürrəmilər İslam şəriətinə sonradan gətirilmiş və dinin təməl kitabı ilə uyğunsuzluq təşkil edən şəri qadağanları qəbul etmir, İslamda xilafət institutunu inkar edir, Abbasilər sülaləsinin rəsmi saray məzhəbi olan mötəziliyyəyə və dindən sui-istifadə edən talançı ərəb militarizminə qarşı çıxış edirdilər. Xürrəmilərin dini-məzhəbi dünyagörüşləri üzərində aparılan təhlillər bunu söyləməyə əsas verir ki, xürrəmiyyə təriqəti İslamın batini qanadına və "ifrat şiə təmayülləri" adlandırılan cinaha mənsub, əqidəcə sufizmə və xalq İslamına çox yaxın, sonrakı dövrlərin sufilik, ələvilik, hürufilik və qızılbaşlıq təriqətlərinin dini-fəlsəfi baxışları ilə eyniyyət təşkil edən ideyalara malik İslamdaxili bir cərəyan olmuşdur.

7. Qərb tarixçilərinin mülahizələri əsasında söyləmək olar ki, Xürrəmilərin düşməni Abbasi sarayının hakim sülaləsi dinin ehkamlarını öz sülalə maraqlarına uyğun bir şəkildə təhrif etmiş, mənsub olduqları mötəziliyyə cərəyanının dini baxışlarına zidd mövqe tutan digər təriqət və firqələrə divan tutmuş, siyasi və dini-

ideoloji baxımdan özlərinə rəqib olan hər kəsə, o cümlədən, peyğəmbər nəslinə qarşı olduqca sərt davranmış, ələ keçirdikləri torpaqların yerli xalqlarına münasibətdə dözülməz siyasət yeritmişlər.

8. Xürrəmilərin Bizansa köçləri və oradakı fəaliyyətləri hərəkatın Babək dövrünün ayrıca bir səhifəsini təşkil edir. 833-834-cü illərdə ailələri ilə birlikdə Bizans ərazilərinə (mərkəzi və şərqi Anadolu torpaqlarına) mühacirət etmiş Xürrəmilər və onların rəhbəri Nəsirlə bağlı çoxsaylı faktlar Xürrəmilər hərəkatının tarixşünaslığında böyük maraq doğurur və əhəmiyyət kəsb edir.

**Dissertasiyanın əsas nəticələri müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Təhrif olunmuş tarix: Babək və hürrəmilər olduğu kimi. Bakı: Elm və Təhsil, 2014, 255 s.

2. Движение Хуррамитов в Российской и советской историографии. ISBN: 978-613-4-96363-3. LAP Lambert Academic Publishing, 2018, 62 s.

3. Babək və xürrəmilərin dini-məzhəbi dünyagörüşləri barədə. // Tarix və onun problemləri, №2. Bakı: 2015, s.20-27

4. Babək və Xürrəmilər hərəkatı Avropa və Amerika tarixşünaslığında. // Tarix və onun problemləri, №3. Bakı: 2015, s.272-284

5. Azərbaycan milli dövlətçilik tarixində Babək Xürrəminin yeri və rolu. // Tarix və onun problemləri, №4. Bakı: 2015, s.65-73

6. Xürrəmilər və erməni-haylar. // Pedaqoji Universitet Xəbərləri, Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi. №3. Bakı: ADPU, 2015, s.83-88

7. Bizans ərazilərinə xürrəmi köçləri və onların sonrakı fəaliyyətləri barədə. // Elmi əsərlər, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu. 67-ci cild. Bakı: 2017, s.91-102

8. Truth about Babak and the Hurramids movement. // Национальный Педагогический Университет имени М.П.Драгоманова, Украинская Академия Наук, Гилея, Научный вестник, выпуск 103 (№12). Киев: 2015, s.99-105

9. Освещение движения Хуррамитов в Российской историографии XIX века. // «Пріоритетні напрями вирішення

актуальних проблем суспільних наук» mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları (20-21 oktyabr, 2017-ci il). Одесса: ГО «Причорноморський центр досліджень проблем суспільства, 2017, s.5-8

10. Освещение движения Хуррамитов в Российской историографии XIX века. // Национальный Педагогический Университет имени М.П.Драгоманова, Украинская Академия Наук, Гилея, Научный вестник, выпуск 125 (№10). Киев: 2017, s.155-157 (Odessada 20-21 oktyabr 2017-ci il tarixli konfransın materiallarında dərc olunmuş məqalənin tam versiyası).

11. Xürrəmilərin cəm ayinləri və Xürrəmi qadınlarının sosial haqları İslam güzgüsündə. // International Asian Congress on Contemporary Sciences – IX, November 1-3, 2023, Odlar Yurdu University, Baku. Issued: 02.12.2023. pp.163-168. ISBN: ISBN: 978-1-955094-53-5

12. Xürrəmilərdə ailə dəyərləri və onlara atılan bəzi iftiralar barədə. // Zəngəzur 2023 (müasir geosiyasi şəraitdə beynəlxalq müna sibətlərin humanitar aspektləri). Kollektiv monoqrafiya. – Bakı: “Jekoprint” nəşriyyatı, 2023. 300 səh. s. 290-299

Dissertasiyanın müdafiəsi 28.06.24 tarixində saat 10^00^-da Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı şəh., Yasamal r/nu, Zahid Xəlilov küç., 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27.05.24 tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2024

Kağız formatı: A5

Həcm: 58175

Tiraj 100